**On səkkiz bahar yaşadı Əhliman, Rəhman ata ilə Mənsurə ananın igid oğlu. Hər kəs Əhlimanı vətənpərvər, tərbiyəli, böyük-kiçik yeri bilən, vətənə, torpağa bağlı mərd oğlan kimi tanıyıb yaddaşına hopdurub. Şəhid olsa da, əzizləri onu hər zaman qəlblərində yaşadır, adı çəkiləndə nə qədər kədərlənsələr də, igidliyi ilə qürur duyurlar. Vətən müharibəsi şəhidi Mehdiyev Əhliman Rəhman oğlu 17 may 2002-ci ildə İmişli rayonu Məzrəli kəndində doğulub.**



# Murovun Ömər aşırımını alan qəhrəman - top mərmisindən şəhadətə qovuşdu - Əhliman Mehdiyev...

***Mənsurə Mirzəyeva:** "Üç ayın əsgəri olmasına baxmayaraq, özü ərizə yazıb könüllü olaraq müharibəyə gedib"*

## *"İki dəfə yaralansa da geri çəkilməyib, döyüşüb..."*

Qanını Vətən torpağına halal edən Əhliman qəhrəmanlığı, cəsurluğu ilə adını tarixə yazıb.

Hələ orta məktəbdə oxuyan zaman daim vətənpərvərliyi və qorxmazlığı ilə həmyaşıdlarından seçilən Əhliman orta məktəbi bitirdikdən sonra 2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə gedib. O, xidmətə xüsusi təyinatlı hərbi hissədə başlayıb. Müharibədə xüsusi təyinatlı qüvvələrin hərbi qulluqçusu kimi döyüşüb.

Azərbaycan Ordusunun əsgəri olan Əhliman Mehdiyevin döyüş yolu Murov dağı istiqamətindən başlayıb. Əhliman həmin ərazidə yerləşən Koroğlu yüksəkliyinin azad edilməsində böyük şücaət göstərib. Növbəti tapşırıq zamanı döyüşçü yoldaşları ilə birgə Ömər Aşırımı adlanan mövqeyi ələ keçirmək üçün hücuma keçib. İki güllə yarası alsa da, döyüşə davam edib. Lakin düşmən tərəfindən atılan artilleriya mərmisi onun yaxınlığına düşüb və Əhliman Mehdiyev 2020-ci il oktyabrın 2-də cəbhənin Murov dağı istiqamətində gedən döyüşlərdə şücaət göstərərək şəhid olub.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Əhliman Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Murovda şəhadətə qovuşub 18 yaşlı Əhliman. Anasının göz bəbəyi, atasının qürur mənbəyi, bacısının arxa-dayağı olan Əhlimanın şəhid olması ailəsini dərin kədərə bürüyüb.

Murovdan gələn oğlunun
Tabutunu oxşa, ana!

Mənsurə ana oğlunun tabutunu da, dəfn olunduğu torpağı da o qədər qucayıb ağlayıb ki...O qədər Allaha yalvarıb ki, torpaq oğlunu geri qaytarsın. Bəlkə də ana öz içində oğlunun şəhid olduğuna heç inanmır da. Bütün şəhid anaları inanır ki, bir gün oğulları mütləq qayıdacaq, onlar görüşəcəklər.

Qərib quzutək mələrəm,
Leysan olub nur ələrəm,
Gələrəm, yenə gələrəm,
Ağlama, anam, ağlama.
(Abdulla Qurbani)

Oğullar anaların göz yaşlarına qıymırlar ki. Qarlı-boranlı Murova çiləndi şəhid oğulların qanı, son sözlərini Murova söyləyib, ürəyində mübhəm saxladıqları sirləri ona dedilər. Dumanlı dağlara çökdü oğulların harayı, son nəfəslərini verdikləri Murova "ana", "ata" dedilər. Murovda o qədər sirli səslər yatır ki...Murovda o qədər oğulların ayaq izləri yaşayır ki...Səsləri qalıb dağların qulaqlarında, xəzan olmuş gül-çiçəyin göz yaşlarında.

Şəhid Əhlimanın anası Mənsurə Mehdiyeva ilə Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 gün-Tarixi zəfər" adlı IV cildlik kitabın I, II, və III cildlərinin İmişli rayonunda təqdimatı ilə bağlı ezamiyyətdə olarkən tanış olub söhbətləşdik...

Mənsurə ana oğlunu xatırladıqca haldan-hala düşür, göz yaşlarını saxlaya bilmir, sızıldayan ürəyindən ah-nalə qopur. Ana əvvəlcə Əhlimanın məktəb illərindən danışır: "Orta məktəbi öz kəndimizdə bitirib. Dərslərinə həmişə hazır olsa da, çox utancaq olduğu üçün dərslərini danışmayıb. Amma təlim-tərbiyəsi, əxlaqı ilə seçilib. Əhlimanın uşaqlıqdan idmana çox böyük həvəsi vardı, çox vətənpərvər, mehriban, böyük-kiçik yeri bilən, hamının hörmətini qazanan uşaq olub. Əsgərliyə gedəcəyi günü səbrsizliklə gözləyirdi. Öz xidməti ilə bağlı xəyallar qururdu, deyirdi ki, idmançıyam, orada özümü yaxşı göstərməliyəm.

2020-ci ilin may ayının 17-də 18 yaşını tamam edib iyunun 18-də həqiqi hərbi xidmətə gedib. Xüsusi təyinatlılara düşmüşdü, çox sevinirdi. Deyirdi ki, xüsusi təyinatlılara düşməyim əla oldu, ermənilərin öhdəsindən gələcəyəm. Xüsusi təyinatlılarda xidmət etmək həqiqətən də çətin və məsuliyyətli idi. Bunu oğlum deyirdi. Şəhid olanda üç ayın əsgəri idi oğlum. Müharibənin ilk günlərində - oktyabrın 2-də şəhid olub. 18 yaşında olmasına baxmayaraq, heç nədən çəkinməyib, Kəlbəcər istiqamətində Ömər aşrımının, Koroğlu postunun azad olunmasında balamın da yaxından iştirakı olub. Döyüş yolu oradan keçib oğlumun.

Cənab Prezident Sərəncamla III dərəcəli "Rəşadət" ordeni ilə Əhlimanı təltif edib, dörd medalı, çoxlu təltifnamələri var. Üç ayın əsgəri olmasına baxmayaraq həmişə öndə olub, mərd oğul idi. Yeganə oğlumuz idi Əhliman. Bir qızımız, bir oğlumuz vardı. Əhliman şəhid olandan sonra qardaşı da dünyaya gəldi, ona şəhid balamın adını qoyduq. Təsəllim odur, məni yaşadan odur. Gənc ailə idik, o yaşda bala itirmək bizə çox ağır idi. Oğlum haqda danışmaq çox ağırdır, çox çətindir. Elə xatirələr var ki, onları yada salanda çox acı çəkirəm.

Əhlimanın xidməti qısa müddətdə olsa da, əsgərliyə getdiyi gündən onun yalnız xoş xəbərləri gəldi, o xəbərlərdən qürur duyduq, başımızı həmişə ucaltdı. Komandiri, giziri bizə gəldilər, balam haqqında danışdılar. Əhliman müharibədə snayper olub, əməliyyatlara kəşfiyyatçılarla birgə gedirmiş. Ağır təlimlərdə, məşqlərdə ürəklə iştirak edib, bütün çətinliklərin öhdəsindən gəlib. Üç ayın əsgəri olmasına baxmayaraq özü ərizə yazıb könüllü olaraq müharibəyə gedib.

Əhlimanın əsgərliyə getdiyi dövr pandemiyaya düşdü. Pandemiya səbəbindən yanına gedə, andiçməsində iştirak edə bilmədik, qoymadılar, bizə Əhlimanı əsgər paltarında görmək qismət olmadı. Xeyir-duasını verib əsgərliyə yola saldıq, üstümüzə şəhid olması xəbəri gəldi. Allahın məsləhətinə şükür. Murovdağ, Kəlbəcər istiqamətində Ömər aşrımında şəhid oldu. O, şəhid olmazdan əvvəl iki dəfə yaralansa da geri çəkilməyib, döyüşüb..."

Əhliman şəhid olsa da, adını daşıyan balaca Əhliman ata ocağının çırağını yandıracaq, qardaşının işığını yaşadacaq. Ananın, atanın təsəllisi odur ki, Əhliman şəhid olub, canını Vətənə fəda edib.

Üç rəngli bayrağam indi
Vətənəm, torpağam indi...
Ağacda yarpağam indi
Ana, qayıtmışam sənə...

Aç qapını səhər çağı,
Qarşıla gələn qonağı...
Ərisin həsrətin dağı
Ana, qayıtmışam sənə...

Şəhidlər əbədi yaşar,
Dost sevinər, yağı çaşar.
Şəhdilərin yanan məşəl
Ana, qayıtmışam sənə...

Mənsurə ananın qulağına oğlunun səsi gəlir, şeir dolu səsi... "Bütün ayrılıqlar bir gün sona yetər, ana..."- deyir Əhliman, "qayıdaram yanına"söyləyir şəhid...Şəhidlər ölməzdi axı, Əhliman Mehdiyev də yaşayır - həm qardaşının cismində, həm göylərdə...

***İradə SARIYEVA***
***İmişli-Bakı***